Xalq qəzeti.-2014.-13.-S.10.

# Türkiyədə azərbaycanlı filosofa ehtiram

**Türkiyənin "İKSAD Yayın Evi" uzun illər Türkiyədə çalışmış Azərbaycan elmi ictimaiyyətinin görkəmli nümayəndəsi – filosof, bəstəkar, musiqi estetikası üzrə fəlsəfə elmləri doktoru, Azərbaycanın xalq şairi  Osman Sarıvəllinin oğlu Babək Qurbanova (Osmanoğlu) həsr olunan "Babək Qurbanov – 85" yubiley kitabını nəşr edib.**

Türkiyənin Qaziantep Universitetinin professoru İlqar Cəmiloğlu və Əli İmamverdinin qələmə aldıqları, XI fəsildən ibarət olan kitabda  tanınmış elm xadiminin həyat və fəaliyyəti, yaradıcılığı geniş işıqlandırılıb və Türk dünyasının ünlü elm və sənət xadimlərinin müxtəlif  illərdə yazdıqları məqalələr yer alıb. Babək Osmanoğlunun 25 il ərzində çalışdığı Ərzurum Atatürk Universiteti və Qaziantep Universitetinin Türk Musiqisi Dövlət Konservatoriyasında məhsuldar fəaliyyəti, onun bir insan, etibarlı dost, əsl alim, vətəndaş, peşəkar pedaqoq, ensiklopedik bilgiyə sahib elm xadimi kimi şəxsiyyətinin ətraflı təqdimatına imkan yaradır.

Kitaba Babək Qurbanovun müxtəlif elm sahələri üzrə (fəlsəfə, estetika, musiqişünaslıq, ifaçılıq, muğam sənəti, aşıq yaradıcılığı, folklor, siyasət və s.) fərqli mövzuları əhatə edən 76 elmi məqaləsi ilə yanaşı, aspirantlarına verdiyi elmi rəylər də daxil edilmişdir. Azərbaycanın xalq şairi  Osman Sarıvəllinin ailəsində böyüyən alimin 13 şeiri, Babək müəllimin fotoqraf  dostu Ayhan Kılıncın müxtəlif illərin xatirəsini əks etdirən 560-dan çox foto da kitabda yer alır.




Babək Qurbanov 700 məqalənin, 53 elmi kitabın müəllifi və 30-dan çox  aspirantın elmi rəhbəri olmuşdur. Onun bu günə kimi yayınlanmamış 5 bəstəsi ("Mustafa bəy", "Qocalma gözəl", "Məni anla", "Dünyanın tacı", "Dedin") də ilk dəfə olaraq bu kitabda təqdim edilir.

Yubileyi münasibəti ilə yayınlanan "Babək Qurbanov–85" adlı kitab musiqişünaslar, filosoflar və professor Babək Qurbanovun yaradıcılığı ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

***XQ***